# Baykal-Amur Magistralı (BAM) indiyə qədər dünya miqyasında həyata keçirilən ən nəhəng nəqliyyat layihələrindən biridir

Regional və beynəlxalq təşəbbüsləri, qlobal sülh və təhlükəsizliyə verdiyi misilsiz töhfələr, müəllifi olduğu reallıqların bölgəyə gətirdiyi yeni inkişaf meylləri dövlətimizin başçısı cənab İlham Əliyevi dünyada əsas aparıcı liderlərdən birinə, ölkəmizi isə böyük söz sahibinə çevirib. Onun hər bir addımı, qəbul etdiyi qərarları, dəyərli fikirləri təkcə Azərbaycan dövləti və xalqı üçün deyil, ümumilikdə beynəlxalq aləm üçün də önəmlidir. Serbiya Prezidenti Aleksandar Vuçiçin "İlham Əliyev Avropada çox məşhurlaşıb. Bilmirəm o nə edib, amma etiraf edim ki, bunun sirrini mən də bilmək istərdim", Şimali Makedoniya Prezidenti Stevo Pendarovskinin "İlham Əliyev Avropada ən çox arzuolunan şəxsdir", eləcə də Macarıstanın XİN başçısının Peter Siyartonun "Bu gün Qərb liderləri Azərbaycan Prezidenti ilə şəkil çəkdirmək üçün Bakıya can atırlar" kimi fikirləri bir daha Prezidentimizin beynəlxalq nüfuzundan xəbər verən məqamlardır.

Heç də təsadüfü deyil ki, Azərbaycanın üzv olduğu, ya olmadığı istənilən regional və beynəlxalq xarakterli görüşlərə cənab İlham Əliyev dəvət olunur və qiymətli fikirləri alınır. Hətta görürük ki, Prezidentimiz dost dövlətlərin təşkil etdiyi daxili tədbirlərdə belə ali qonaq qismində iştirak edir. Təbii ki, bütün bunlar bilavasitə dövlətimizin başçısının şəxsi nüfuzu ilə əlaqədardır. Prezident İlham Əliyevin iştirak etdiyi növbəti belə tədbir aprelin 22-də Moskvada Baykal-Amur Magistralının (BAM) 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə təşkil olunan görüş oldu. Bildiyimiz kimi, BAM indiyə qədər dünya miqyasında həyata keçirilən ən nəhəng nəqliyyat layihələrindən biridir. Və bu layihənin ərsəyə gəlməsində azərbaycanlıların dərin zəhməti və fədakar əməyi danılmazdır. Bunun bariz nümunəsi BAM-in üzərində salınan iki qəsəbədir. Belə ki, Ulkan və Anqoy qəsəbələrini məhz azərbaycanlılardan ibarət briqadalar inşa edib və özü də nəzərdə tutulan vaxtdan iki ay tez işi təhvil veriblər.

Həmin nəhəng magistraldan danışarkən ilk növbədə yada Vətənimizin böyük oğlu, qurucu, ayaq qoyduğu hər bir yerə inkişaf, tərəqqi gətirmiş Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev düşür. Rusiya Prezidenti Vladimir Putin başda olmaqla dəmir yolu sahəsinin veteranlarının Ulu Öndərimizi yad etməsi, onunla bağlı xoş xatirələrini paylaşması hər birimizi qürurlandırdı. Bu bir tarixdir ki, Azərbaycan adlı dövləti yenidən quran, onu böyük və dönməz inkişaf yoluna istiqamətləndirən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləyərkən də öz bənzərsiz fəaliyyəti ilə dərin iz qoyub. O, BAM-in tikintisini sürətləndirmək, aparılan işin keyfiyyətini artırmaq məqsədilə 1984-cü ilin iyununda tikinti regionuna gedib. Ulu Öndər orada əməkçilərlə görüşür, tikinti obyektlərinə baxış keçirir, tikilən yeni qəsəbələr və şəhərlərlə tanış olur. SSRİ-nin rəhbər vəzifəli şəxsinin sadə əməkçilərlə görüşməsi və söhbətləşməsi, qayğıları ilə maraqlanması onlara yeni impuls verir, işi başa çatdırmaq üçün daha səylə çalışmağa ruhlandırır. Tikintinin gedişi ilə bağlı onun Siyasi Bürodakı geniş nitqi, aparılan işi sürətləndirməklə bağlı təşəbbüslərindən sonra BAM-in tikintisində ciddi irəliləyişlər baş verdi. Əminliklə deyə bilərik ki, bilavasitə Heydər Əliyevin peşəkar fəaliyyəti nəticəsində 1984-cü ildə Baykal-Amur magistralı hesabına SSRİ-də dəmir yolu xətlərinin uzunluğu 300 min kilometrdən çox artmışdı. Qürurvericidir ki, 2008-ci ildə BAM-də yerləşən Anqoy stansiyası yenidən təmir edilərkən ona məhz Ulu Öndər Heydər Əliyevin adı verildi və bu, ən ədalətli qərar idi.

**Azad MƏMMƏDOV,**
**"Qəbələ"**

# Ulu Öndər Heydər Əliyev irsini davam etdiririk

BMT İqlim Dəyişikliyi üzrə Çərçivə Konvessiyası tərəfindən insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda COP (Confidense of Parties), tərcüməsi - Tərəflər Konfransı sazişi imzalanmışdır. Burada tərəflər Konvessiyaya üzv olan 198 ölkədir. COP-29 konfransına ev sahibliyini Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin "Yaşıl iqtisadiyyata" keçid strategiyasının məntiqi davamı kimi baxmaq olar. Bu missiyaya uyğun olaraq Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2024-cü il " Yaşıl dünya naminə həmrəylik ili" elan edilmişdir. Hələ 2021-ci ilin fevralın 2-də Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafın Milli Prioritetləri" əsasında ölkədə bərpa olunan enerji siyasətinin strateji təməli qoyulmuşdur. Burada qeyd olunmuş 5 Milli Prioritetdən biri "təmiz ətraf mühit" və "yaşıl artımla" bağlıdır. Azərbaycan bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdən biridir. Energetika Nazirliyinin məlumatına əsasən ölkəmizin bərpa olunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavatdır. Bərpa olunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat, günəş enerjisi üzrə 23 min meqavat, bioenerji potensialı 380 meqovatdır. Dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir.

"Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz "yaşıl enerji" ilə bağlıdır. " Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu reallıqdır və bütün dünya bunu bir daha görəcək."- deyə Prezident İlham Əliyev ötən ilin dekabrın 15-də COP 29-un ölkəmizdə keçirilməsi ilə əlaqədar müşavirədə vurğulamışdır.

Azərbaycanın son illər ərzində qazandığı nailiyyətlər, xüsusən də Vətən Müharibəsindəki qələbəsi uzun bir yolun məntiqi nəticəsidir. Bu yolun təməlində Ümummilli Lider Heydər Əliyevin dövlət quruculuğu siyasəti dayanır. Ulu Öndərin layiqli davamçısı cənab İlham Əliyev möhkəm təməllər üzərində qurulan siyasəti inkişaf etdirərək Azərbaycana bu qürurlu günləri bəxş etdi.




Hələ Ulu Öndər Heydər Əliyev sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə (1969 -1982) yaşıllığın qədrini bilməyənlərə anlatdı ki, yaşıllıq olmayan yerdə həyat yoxdur. Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından (1993-2003) sonra müharibə şəraitində, ağır vəziyyətdə olsaq da nəinki Bakı şəhərində, eləcə də respublikamızın bütün bölgələrində yaşıllığa diqqət yenidən artırıldı. Planetin ağciyərləri olan meşələrin qorunması yenidən gündəmə gəldi. Məhz Ulu Öndərin tükənməz enerjisi sayəsində Kür su kəmərlərinin tikilib başa çatdırılması yeni salınan Günəşli, Əhmədli və Hövsan yaşayış massivlərini su ilə təmin etməyə imkan verdi. Heydər Əliyevin "Bakını yaşıllıqlar diyarına çevirək" çağırışı və təşəbbüsü Bakıda bağların, xiyabanların və yaşıllıq zonalarının salınması su təhcizatında böyük irəliləyişlər nəticəsində mümkün olmuşdur. Bildiyimiz kimi, ekologiyanın əsas amillərindən biri də təbii bitki örtüyüdür. 1970-ci ilə qədər Bakı şəhərində 3 min hektara qədər yaşıllıq sahəsi mövcud olmuşdur. Ulu Öndərin rəhbərlik etdiyi 1969-1982-ci illərdə yaşıllıqların sahəsi 17,5 min hektara çatdırılıb. 1971-ci il fevralın 5-də Bakı şəhər partiya konfransındakı çıxışında Heydər Əliyev yaşıllaşdırma tədbirlərini gücləndirmək məqsədilə qarşıya mühüm vəzifə qoydu. "Bakı şəhərində 1 milyon 261 min əhali yaşayır. Əgər şəhərin hər bir sakini bir neçə il ərzində ikicə ağac əkib yetişdirsə, Bakı ətrafında neçə-neçə park və meşə salınar". Bakı şəhərinin bütün ətrafını və şəhərin baş planına görə yaşılllaşdırmaq üçün nəzərdə tutulan bütün əraziləri bölmələrə, bölmələri isə sahələrə bölərək hər sahəni zavoda, fabrikə, məktəbə və s. təhkim edildi. Həmin illərdə respublikada ekoloji vəziyyətin yaxşılaşdırılması və təbii ehtiyyatlardan səmərəli istifadə edilməsi sahəsində məqsədyönlü siyasət yürüdülürdü. İri su hövzələrinin yaradılması, torpaqların şoranlaşmadan təmizlənməsi üçün drenaj sistemlərinin tikilməsi, geniş meşə zolaqlarının salınması, ölkəmizin flora və faunasının qorunub saxlanılması məqsədilə respublikada Şirvan (1969), Bəsitçay (1974), Ağ göl (1978), İsmayıllı (1981) və s. dövlət qoruqları və yaşıllıqların yaradılması, Abşeron zonasında və Gəncədə iri yaşıllıq massivlərinin salınması, şəhər və rayonlarımızda nəhəng sutəmizləyici qurğuların , böyük dəryaçaların inşa edilməsi məhz Heydər Əliyevin zəhmətinin bəhrəsi idi. O vaxt cənub bölgəsinin iki böyük rayonu olan Lənkəran və Masallı üçün mühüm suvarma dəryaçaları Xanbulançay və Viləşçay dəryaçalarının yaradılması bir tərəfdən zonada əkin torpaqlarının suvarılmasına xidmət edirdisə, digər tərəfdən bu yerlərin təbiətinin zənginləşdirilməsinə xidmət edirdi. 1971-ci ildə Naxçıvan Muxtar Respublikası ərazisində Araz çayı üzərində İran-Azərbaycan "Araz" SES adı altında gücü 22 MVt olan stansiyanın inşası, 1976-1977-ci illərdə Sərsəng Su anbarı və gücü 50 MVt olan eyniadlı su elektrik stansiyasının istifadəyə verilməsi məhz Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf etmişdir. Bu illərdə həmçinin gücü 380 MVt olan Şəmkir SES istismara buraxılmışdır. Bakı və Abşeron yarımadasının keyfiyyətli içməli su ilə təmin olunması məqsədilə 2002-ci ildə Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilişi ilə bağlı təşəbbüsün müəllifi Ulu Öndər Heydər Əliyev olmuşdur.

Ümummilli Liderimizin 2003-cü il Prezident seçkiləri öncəsi xalqa müraciəti zamanı səsləndirdiyi "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" etimadını son 20 ildə ata vəsiyyətini yerinə yetirməklə doğruldan cənab Prezident İlham Əliyev xalqımızın 200 illik mübarizəsini möhtəşəm Qələbə ilə başa çatdırdı. Prezident İlham Əliyev tərəfindən 3 may 2021-ci ildə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalandı. "Yaşıl dünya naminə həmrəylik ili" dövründə Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Qarşıda duran başlıca vəzifələrdən biri azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması, düşmənin vandalizminə məruz qalmış meşələrin bərpa olunmasıdır. "Ağıllı kənd" və "Ağıllı şəhər" kimi müasir innovasiyalı layihələrin tətbiq edilməsi ekosistemə yeni yanaşmadır. Son illərdə ölkəmizdə milyonlarla ağac əkilməsi, yeni parkların salınması və dövlət başçısının özünün və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu kompaniyalarda iştirakı ətraf mühitin qorunmasına xüsusi diqqətin göstəricisidir. Ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə istifadə edilməsi respublikamızda aparılan sosial-iqtisadi islahatların tərkib hissəsidir.

**Araz AĞAYEV,**
**Kiçik Pirəli kənd İƏD üzrə nümayəndə.**